# HAQQ YOLUNUN YOLÇUSU...

Mehman Eynulla oğlu Fərzullayev... İndi hamı ona “Hacı” deyə müraciət edir. Mən onu 1994-cü ildə “Hərbi nəşriyyat”ı yaratdığı vaxtlardan “Hacı” kimi tanımışam. Xeyirxahlığı, əxlaqı, əqidəsi ilə anadangəlmə Hacıdır.

Poliqrafiyada və həyatda özünə ustad saydığı Azərbaycanın ilk poliqrafçı alimi Şəddat Cəfərovun devizilə işləyib: “İşi görmək istəyən vasitə axtarır, görmək istəməyən bəhanə”...

Orta məktəbdə əla oxuyub. Ordu sıralarına kommunist kimi gedib. Üç ay sonra səhra şəraitində əl və ayaq gücünə işləyən çap maşınında dörd rəngli vərəqə “Boevoy listok” çap edir, mətbəənin müdiri təyin olunur. Rəhbərlik etdiyi mətbəə ordu mətbəələri arasında birinci olur. Hərbi Dairənin “Leninskaya znamya” qəzetində yazıları çap olunur. Dairə Partiya aktivində müdafiə nazirinin birinci müavini, ordu generalı Sokolovla görüşür. Şəkli “Leninskaya Znamya” qəzetində çap olunur.

Komandanlıq ona Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun hazırlıq şöbəsinə göndəriş verir. Atası razı olmur. Bakıya gedir, Azərbaycan Dövlət Universitetinin mətbəəsində işə düzəlir. Sənədlərini ADU-nun jurnalistika fakültəsinə verir və qiyabi şöbəyə qəbul olunur. Azərbaycan və rus dilində 100-dən çox məqaləsi dərc olunur. Mətbəə işini bildiyindən müəllimlərinin sevimlisinə çevrilir. Nəsir İmanquliyev, Şirməmməd Hüseynov, Seyfulla Əliyev, Əliş Nəbili, Nurəddin Babayev, Tofiq Rüstəmov, Mahmud Mahmudov, Akif Rüstəmov, Cahangir Məmmədli, Nəriman Zeynalov və başqalarından hər zaman xoş xatirələr danışır. Mir Cəlal müəllim kafedra müdiri olmaqla “Dil-ədəbiyyat” jurnalının redaktoru olur. Mehman həmişə jurnalı çapa imzalamaq üçün onun yanına gətirərkən özü ona bir stəkan çay süzüb ailə vəziyyəti, problemlərini soruşub kömək təklif edərmiş. Mehman isə ehtiyac olsa da ona heç nə deməzmiş.

Sumqayıtda “Sumqayıtkimya” İB-də diktor-müxbir kimi işə başlayır. Hazırladığı reportajlar respublika radio və televiziyasında yayımlanır.

Danışır ki, “Kimyaçı” qəzeti ilə birgə çox gözəl, mehriban kollektivimiz vardı. Hər birimiz təkcə yazı hazırlamaqla kifayətlənməyib, həm də işdə çətinliyə düşmüş insanların problemlərinin həllində onlara kömək edirdik. Zümrüd Baloğlanova, Mais Əliyev, Mahirə Abdullayeva, Oktay Tahirov, Bəhmən Abışov işdən yorulmurduq.

Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin sədri olmuş Elşad Quliyev çox yaxşı adam idi. Bizim radio qovşağımız üçün bütün avadanlıqları təmənnasız balansdan balansa verdirdi. Aparıcı işçilər - baş redaktor Ənvər Qafarlı, Valid Sənani, Nuhbala müəllimlə xoş münasibətlərimiz vardı. Mənə yaxşı qonorar verirdilər. Bakı-Sumqayıt yolunun uzaqlığı səbəbindən belə xoş münasibətli mühitdən ayrılmalı oldum.

“Yeni Kitab” mətbəəsinin direktoru Şəddat Cəfərova müraciət edir. Mehman Fərzullayev yığım sexinə müdir göndərilir. Planı 70 faizdən artıq ödəyə bilməyən sex ilk ayda 120 faizi ötür. Sonrakı aylarda 170-180 faizə çatdırılır. Yeniliklər bizim sexdə tətbiq olunurdu. Perfolenta ilə yığım tətbiq edildikdə işin sürəti 30 faiz artır. İkiqat əmək haqqı veriləcəyini vəd edib linotipçi qızları ikinci növbədə işə cəlb edir. Axşam növbəsindən qızları evə aparmaq üçün Şəddat müəllim maşın ayırır. M.Fərzullayev hər gecə qızları avtobusla evlərinə aparıb valideynlərinə tapşırdıqdan sonra gecə saat birdə özü evə qayıdır. Səhər saat yeddidə isə sexi şəxsən özü açıb maşınları işə salır ki, metal ərisin, səkkizdə işə gələn qızlar işləyə bilsinlər. Məhz belə işləməklə uzun müddət mətbəədə yatıb qalmış nadir kitablar işıq üzü görür.

Ş.Cəfərov haqqında “İlk poliqrafçı alim” kitabını yazdığımdan bir fakta aydınlıq gətirim: SSRİ Mətbuat Komitəsinin sədri Boris Stukalin “Yeni Kitab” mətbəəsinə Cəfərovu direktor təyin edəndə mətbəə acınacaqlı vəziyyətdə imiş. Poliqrafçı alim işləri elə yoluna qoyur ki, 11 aydan sonra mətbəə SSRİ mətbəələri arasında I yerə çıxır. Stukalin Keçici Qırmızı Bayrağı mətbəəyə təqdim etmək üçün Bakıya gəlir, Bayrağı şəxsən özü Şəddat müəllimə təqdim edir.

Akademik Həsən Əliyevin 38 cap vərəqi həcmində olan kitabı, eləcə də akademik, Neft-Kimya İnstitutunun rektoru Kazım Quluzadənin “Elektrotexnika. II cild” - mərtəbəli riyazi terminlərdən ibarət irihəcmli kitabı əl ilə yığılıb çapa imzalanır.

Əkrəm Cəfərin 7 il mətbəədə yığılmayan ərəb-latın və Azərbaycan qrafikasının eyni xəttə yazılmış mətnini heç kəs yığa bilmirdi. Ərəb dilində yığa bilən mütəxəssisə akkord əmək haqqı verilməklə türkdilli xalqlar tarixində əruz vəzni ilə bağlı iki min il ərzində qələmə alınan ilk və yeganə kitab işıq üzü görür. 80 yaşında olan böyük alim Əkrəm Cəfər ağlayır. Ümumdünya Zebu Cinsləşdirmə Komitəsinin prezidenti, professor Zülfüqar Verdiyevin kitabı iki aya işıq üzü görür.

Planın ikiqat yerinə yetirilməsində yığım sexinin payı çox olduğundan Stukalin təqdimatdan sonra sexə gəlib işlərilə tanış olur.

M.Fərzullayev “Yeni Kitab” mətbəəsində istehsalat-texniki şöbəyə rəis təyin olunur. Sonra köçürmə yolu ilə “İşıq” nəşriyyatına gedir.

“Azərbaycan miniatürləri” albomu 7 il əvvəl Moskvada çapa hazırlansa da, heç bir məsul şəxs nəşri imzalamır. Nəşriyyatın işçiləri 10 il idi, əmək haqqını vaxtında ala bilmirdilər. Moskvaya gedir. 20 günə səlahiyyəti öz üzərinə götürməklə kitabı çapa imzalayır və yüksək səviyyədə çapına nail olur. Tirajdan 100 nüsxə ilə Bakıya qayıdır. Kitab Azərbaycan KP MK-nın I katibi Heydər Əliyevə təqdim olunur. Rəhbər kitabın yalnız gələn qonaqlara bağışlanmasını tapşırır. Kitab beynəlxalq sərgidə 2-ci mükafata - gümüş medala layiq görülür. “İşıq” nəşriyyatının işçilərinə 38 min mükafat ayrılır.

Digər nəşrlər - açıqca dəstləri, 30 il əlyazma şəklində istifadə olunan F.Əmirovun “Sevil”, C.Hacıyevin “Təntənə”, A.Məlikovun “Məhəbbət əfsanəsi” və digər not ədəbiyyatları Moskvada yığılaraq Bakıda çap olunur. Vaxtında əmək haqqı almayan kollektiv mükafat və 14-cü maaş alır. M.Fərzullayevin adıyla bağlı olan uğurlar rəhbərliyin xoşuna gəlmir. Mükafatlandırılmalı olan işdən getməli olur.

Şəddat Cəfərovun rəhbər olduğu “Kommunist” (“Azərbaycan”) nəşriyyatına gedir. Sinkoqrafiya sexində işə başlayır.

Ona şilda istehsalı tapşırılır. Bütün avadanlıqlar üçün istifadə olunan bu etiket əvvəllər Saratov və Yaponiyada sifariş verilirdi. Qəzet çapında istifadə olunan qiymətli metallardan hazırlanmış bimetal lövhələr kilosu 20 qəpiyə Sibirə təkrar emala göndərilirdi. Şilda istehsalında istifadə olunan tullantı materialın hər kilosundan 20 manat təmiz gəlir əldə olunur. 10 adamla 20 min manat qazanc əldə olunurdu. Fəhlələr 700 manat maaş alırdılar. İstehsal üsulu sex rəisinin özünün tapıntısı idi.

Sahəni başqasına tapşırıb sexi köçürürlər. İki ay sonra istehsal dayanır.

İşçilər yüksək əmək haqqından, zavodlar məhsuldan, nəşriyyat gəlirindən məhrum olmaqla qiymətli metal ölkədən çıxır.



Klişe ilə məşğul olur. İrihəcmli texniki və orta məktəb dərsliklərinin altı aya hazırlanan ştrixli klişeləri iki aya icra olunur. Rayon qəzetlərinin fotomüxbirlərinin gətirdiyi şəkillər iki-üç günə hazırlanırdısa, yarım günə hazırlayıb verilirdi ki, gələn fotomüxbir gecə mehmanxanada qalıb pul xərcləməsin. Bununla belə yenə haqsızlıqla üzləşir.

“Kommunist” (“Xalq qəzeti”) qəzetinin redaktoru Rəşid Mahmudovun yanına gedir. Qəzetdə buraxıcı yeri boş olduğundan redaktor Mehmanı o yerə təyin edir. Birgə iş fəaliyyətlərindən ömrünün sonuna kimi dost olurlar. Rəşid müəllimin vəfatından sonra haqqında kitab tərtib edərək redaktə edib. “Kommunist” qəzetinin dörd redaktoru ilə - Rəşid Mahmudov, Ramiz Əhmədov, Cəmil Əlibəyov, Tofiq Rüstəmovla işləyir.

Qəzetdə Əşrəf Hacıyev, Telman Heydərov, Şakir Yaqubov, Şamil Şahməmmədov, Rəfail Nağıyev, Rafiq Həsənov, Əhməd İsayev, Qüdrət Hacıyevi hörmətlə xatırlayır.

Hacı Mehman uşaqlığından ağsaqqallarla dostluq edib.

Ata babası rəhmətlik Ayaz kişi onu özü ilə həmişə məclislərə aparıb. Dördüncü sinifdən seçkilərdə seçki qutusunun yanında “həmişə hazıram” vəziyyətdə durub. O vaxtlar belə idi.

Yüksək vəzifələrdə çalışmış - Baş nazir Rəhim Əlihüseyn oğlu Hüseynov, Şeyx həzrətləri Hacı Allahşükür Paşazadə, Sadıq Murtuzayev, akademik Mirməmməd Cavadzadə, Ali Məhkəmənin sədri Abdulla İbrahimov, Tofiq Aslanov, 14 il Səhiyyə naziri olmuş Hənifə Abdullayev, Əzizağa Talışinski, Nazim Mollazadə, general-leytenant Çingiz Məmmədov, Bahadur Hüseynov, Yaşar Rzayev, Kamran Hüseynov, Hüseyn Əliyev, İqrar Əliyev, Ənvər Nəzərli, Azad Talışoğlu, Kazım Ələkbərov, Xalq artisti Cənəli Əkbərov, Xalq şairi Vahid Əziz, Hacı Ağəddin Mansurzadə və başqaları ilə dostluq münasibətlərində olub.

Rəşid Mahmudov Mətbuat Komitəsinin sədri olanda Təchizat və satış idarəsinə Mehman Fərzullayevi müavin göndərir.

Moskvada çap olunacaq “Panorama Azerbaydjana” qəzetinin nəşri yubanırdı. Qəzet 4 dildə çıxmalı idi. Nə səfirlik, nə başqa təşkilatlar işi yoluna qoya bilmirlər.

SSRİ Mətbuat Komitəsinin ermənipərəst sədri qəzeti Podolskda erməninin direktor olduğu mətbəədə çap etməyə icazə verməşdi. Bu o demək idi ki, icazə vermirəm.

Mehman Fərzullayev bu işin təşkili üçün Moskvaya ezam olunur. Hələlik yalnız rus dilində çıxacaq qəzet çapa hazırlanır. Mehman Fərzullayev qəzeti “Pravda” nəşriyyatında çap etdirməyi planlaşdırır. Son anda arvadı erməni olan baş mühəndis: “Mən nə qədər burdayam, qəzet bizdə çap oluna bilməz!” Direktor müavini Əli Əli oğlu Novruzovla dost olduğundan ona müraciət edir. Əli Əli oğlu direktor Leontyevə məktubu imzalatdırmaqla iş düzəlir.

Qəzet üçün 26 ton kağızı Juravleva familiyalı xanım hədiyyə edir. Ertəsi gün - 1991-ci il yanvarın 10-da baş redaktor rəhmətlik Fərhad Ağamalıyevin doğum günü qəzetin ilk nömrəsi 80 qramlıq ofset kağızında 4 rəngdə çap olunur və “Pravda” qəzetinin arasına 10 nüsxə yerləşdirib baş mühəndisin stoluna qoyulur. Erməni yeznəsi dəli olur.

Qəzetin “Soyuzpeçat” vasitəsilə yayım məsələsində Bakıdan olan Mayılova soyadlı bir erməni qadın: “Nə qədər ki, mən burdayam...” İşi Allah düzüb qoşursa milyon erməni gəlsin. Mehman Fərzullayev SSRİ Rabitə nazirinin birinci müavini ilə görüşür və bir saatda iş həllini tapır. 30 min tirajla çıxan qəzet dünyanın çox yerinə yayılır.

Qəzetin işilə bağlı il yarım Moskvada qalır. Qəzet üçün “Moskovski novosti” qəzetinin yanmış binasını satın almaq istəyir. Səlahiyyətli nümayəndəmiz Söhrab İbrahimov “neçəyə deyirlər al, pulunu mən taparam” - deyir. Allah ondan razı olsun! Onun müavini isə Söhrab bir həftəyə Türkiyəyə konsul gedir, mən razı deyiləm deyib işə mane olur. Sonra boş yerdə qaldıqda nümayəndəliyin vestibülünü təmir edib yerləşirlər.

Səlahiyyətli nümayəndə qəzet üçün heç nə vermir. Mehman qəzet üçün bütün avadanlıqları “Pravda” nəşriyyatından Əli Əli oğlu vasitəsilə alır. Digər dostları isə Moskvada ilk olaraq “Panorama Azerbaydjana” qəzetinin kompüter üsuluna keçməsi və A3 ölçülü ən yeni printerlə təmin edilməsinə kömək edirlər.

Mehman müəllim deyir ki: ““Panorama Azerbaydjana” qəzetində işlədiyim vaxt bir gün “Pravda” nəşriyyatına gedərkən Baş redaktor Fərhad Ağamalıyev məndən xahiş etdi ki, orada işini qurtardıqdan sonra yolüstü Xarici İşlər Nazirliyinin mətbuat mərkəzinə gedərsən. Saxarov fondunun rəhbəri Yelena Bonerin mətbuat konfransı olacaq, gör nə danışır.

Tədbirin başlanmasına on dəqiqə qalmış beşinci sırada mərkəzdə Bonerlə üzbəüz oturdum. Mətbuat salonu dünyanın hər yerindən gəlmiş erməni jurnalistlərlə dolu idi. Boner iki-üç dəqiqə danışdıqdan sonra başladı Sumqayıt hadisələrindən hiddətlə danışmağa. Azərbaycanlıların, sumqayıtlıların guya 13 yaşlı qızı zorlayıb eyvandan küçəyə atmaları, azərbaycanlılara qarşı vəhşi türklər və sair təhqiramiz ifadələr işlətməsinə dözə bilmədim. Dəqiq bilirdim ki, Sumqayıt hadisələri təşkil olunmuş bir işdir və cinayəti törədənlər əslində ermənilərdir. Kəskin hərəkətlə ayağa qalxıb əlimlə ona “Dayan!” işarəsini göstərərək uca səslə: “Sən burada özünüzün təşkil etdiyiniz hadisəni təsvir edirsən.

*(Davamı var)*

***Sevda* Əlibəyli**
***“Söz” jurnalının baş redaktoru***